**Mirzə M.** Vətəni bizim kimi ər oğullar qorumalıdır // Respublika. - 2025. - 19 aprel. - **№ 77**. - S. 12.

**2020-ci il 27 sentyabr. Minlərlə igid oğulun qəhrəmanlaşdığı və torpaqlarımızın azadlığı uğrunda başlanan, unudulmayan, yaddaşlara əbədi həkk olunan bir tarix. Qəzetimiz Vətən müharibəsindən sonra mütəmadi olaraq Azərbaycanın müstəqilliyi uğrunda canından keçən şəhidlərimiz haqqında yazılar dərc edir. Şəhid taleləri də müxtəlifdir. Ölkəmizin elə bir rayonu yoxdur ki, orada şəhid olmasın. Milliyyətindən asılı olmayaraq hamı bir amal uğrunda vuruşub müqəddəs torpaqlarımızı düşməndən azad etdi.**

Şəhid Əlisahib Ələkbərov da igid qəhrəmanlarımızdan biridir. Vətən müharibəsi başlayanda hiss etdiyi kimi: "Şəhid olsam arxamca heç kim göz yaşı tökməsin. Ana Vətəni bizim kimi ər oğullar qorumalıdır. Mən qələbəmizin şəhid əsgəri olacağam", - deyə söyləyib.

44 günlük müharibədə igidcə döyüşərək düşmənə qan uddurdu qəhrəman zabitimiz. Əlisahib 1994-cü il yanvarın 15-də Salyan rayonunun Piratman-Gəncəli kəndində anadan olub. Uşaq vaxtlarından hərbçi olmaq arzusu baş qaldırmışdı. Milli ordumuzun zabiti, baş leytenant Əlisahib Ələkbərov atasının etirazlarına baxmayaraq hərbçi olmağı seçmişdi. Ona görə də əvvəlcə Cəmşid Naxçıvanski adına Hərbi Məktəbə, sonra Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olub. Təhsilini başa vurduqdan sonra zabit kimi vətənə xidmət göstərib. İlk döyüş yolu Tovuz istiqamətində baş verən döyüşlərdən keçib. Vətən müharibəsinə Murov istiqamətində qatılıb. Şiddətli döyüş zamanı ayağından yaralanan komandir qarşıdakı yüksəklikdə əsgərinin vurulduğunu görüb.

Əlisahib ailəsi ilə sonuncu dəfə sentyabrın 26-da danışıb. Anasına deyib ki, telefonda deyə bilmədiklərimi sənə məktubda yazmışam. Şəhidimiz ailəsinə, vətəninə bağlı oğul idi. Elə oğluna da gözünün qabağında şəhid olmuş əsgər yoldaşının adını qoymuşdu - Orxan.

Şəhid zabitimizin dünyaya gələn ikinci oğluna ailəsi atasının adını verib. Qeyd edək ki, Əlisahib şəhid olmuş əsgərini döyüş meydanından çıxararkən şəhidlik zirvəsinə yüksəlib.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlığa, hərbi

qulluq vəzifəsini yerinə yetirən zamanı igidlik və mərdlik nümayiş etdirdiyinə görə Prezident İlham Əliyevin sərəncamlarına əsasən Əlisahib Ələkbərov "Qarabağ" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.